# 50 yaşlı musiqi məktəbi



**Söhbət Gəncə şəhərindəki Telman Hacıyev adına 2 saylı uşaq musiqi məktəbindən gedir. 1959-cu ildən fəaliyyət göstərir. Ötən illər ərzində uğurları çox olub. Məktəbin yetirmələrinin sorağı indi respublikanın müxtəlif bölgələrindən, mədəniyyət və incəsənət müəssisələrindən gəlir.**

Müvəffəqiyyətin qazanılmasında təcrübəli müəllimlərin - Ramidə Cəfərovanın, Məmləkət Verdiyevanın, Qətibə İsmayılovanın, Nurlana Sadıqovanın, İlahə Süleymanovanın, Əhəd Ələsgərovun, Vaqif İsmayılovun, Xaliq Sadıqovun, Etimad Musayevin, Mübariz Hüseynovun, Cümşüd Babayevin, Firdus Zeynalovanın, Elmira Seyidovanın, Tamella Əliyevanın və başqalarının xüsusi zəhmət payı vardır.

Yeri düşmüşkən qeyd edək ki, məktəbdə 132 nəfər müəllim çalışır. Onlardan 4-ü ali ixtisas, 30-u ali, 88-i orta ixtisas təhsillidir.

Burada fortepiano, skripka, tar, kamança, qarmon, nağara, akkordeon, vokal və truba ixtisasları üzrə 645 nəfər şagird oxuyur.

Məktəbə təcrübəli pedaqoq Bəxtiyar Hümbətov rəhbərlik edir. O, 1977-ci ildə Ağdam musiqi texnikumunu, 1981-ci ildə isə ADMİU-nu bitirmişdir. 1997-ci ildən məktəbin direktorudur.

Bəxtiyar müəllim işinə məhəbbəti, vəzifəsinə məsuliyyəti ilə seçilir. Onun yüksək təşkilatçılığı sayəsində məktəbin musiqi alətləri (6 royal, 26 fortepiano, 2 skripka, 6 qarmon, 4 nağara, 3 akkordeon, 2 klarnet, 2 truba, 1 nəfəs alətləri dəsti) ilə təminatı, əmək intizamının möhkəmləndirilməsi istiqamətində lazımi addamlar atılır, tədris keyfiyyətli qurulur.



Məktəbdə qarmonçalanlar, nağaraçalanlar ansamblları, xalq çalğı alətləri orkestri, müəllimlərdən ibarət instrumental ansambl, nəfəs alətləri orkestri fəaliyyət göstərir. Onlar Mədəniyyət və Turizm Nazirliyinin, şəhər icra hakimiyyətinin, mədəniyyət və turizm idarəsinin təşkil etdikləri mədəni tədbirlərə fəal qoşulur, hərbi hissələrdə maraqlı konsert proqramı ilə çıxış edirlər. Şagirdlərin şəhər və respublika səviyyəli müsabiqələrdə uğurlu iştirakı da fərəh doğurur. Allahverdi Nərimanov və Turan Şahbazinin nazirliyin II və III dərəcəli diplomlarına layiq görülmələri də buna bir nümunədir.





Bu günlər Gəncə şəhər 2 saylı uşaq musiqi məktəbi özünün fərəhli tarixi anlarını yaşayır. Təhsil ocağının 50 yaşı tamam olur. Yubileyi təlim-tərbiyədə qazandığı uğurlarla qarşılayan kollektiv hələ bundan sonra da neçə-neçə nailiyyətə imza atacağına əmindir...

**● B.ZAYRALIQIZI**

**P.S.** *Öz növbəmizdə biz də yubiley münasibətilə başda Bəxtiyar müəllim olmaqla bütün kollektivi ürəkdən təbrik edir, nəcib işlərində onlara uğurlar diləyirik!!!*